New Baku Post

## AZƏRBAYCANDA YENİ AKADEMİYA

*Yaqut Tapdıqqızı,*
*19. 01. 2013*

*http://bakupost.az/musahibe/20130119113754065.html*

**"Azərbaycan Akademiyasını dünyaşöhrətli alimlər təsis edir. Ənənəvi Milli Akademiyadan sistem və struktur cəhətdən əsaslı fərqlənən elm mərkəzi stereotipləri tamamilə dağıdacaq. Hədəf isə Azərbaycan elminin inkişafı və dünyaya inteqrasiyasıdır."**

**"New Baku Post"a eksklüziv müsahibəsində Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı belə deyir.**



**– Yeni akademiyanın yaradılması hansı zərurətdən doğdu və əsas məqsəd nədir?**

– Biz bu işə ilk əvvəl akademiya sisteminin təhlilindən başladıq. Araşdırdıq ki, dünyada hansı növ akademiyalar var. Avropada akademiyalar XVI əsrdə qurulsa da, XVII əsrdə böyük vüsət alıb. Məsələn: Fransa akademiyası, ya İngiltərədə London Kral Cəmiyyəti akademiyası qurulub. Bu akademiyalar bizim sovet dövründəki akademiyalardan və bu gün Azərbaycanda mövcud olan Milli Elmlər Akademiyasından çox fərqlidir. Çünki Avropadakı və digər inkişaf etmiş ölkələrdəki, regionlardakı bu akademiyalar bizdəki kimi elmi tədqiqat institutları şəbəkəsi deyil.

Bizdən fərqli olaraq Qərbdə tədqiqatlar universitetlərdə aparılır. Akademiyalar isə alimlərin cəmiyyətidir. Burda elmdəki meyillər araşdırılır, yeniliklər təhlil edilir, gələcək istiqamətlər müəyyənləşdirilir, elmə töhfə verən insanlara qiymət verilir. Bu akademiyaya üzv olan adamlar son dərəcə məşhur, elmə, sənətə, mədəniyyətə böyük töhfə verən adamlardır.

Bizdə də belə bir akademiya yaratmaq ideyası 4-5 il əvvəl yarandı. Amma o vaxt ümumi razılığa gəlinmədi. Yeni akademiyanın məqsədi dünyadakı elmi proseslərə inteqrasiyaya nail olmaqdır.

**– Akademiyanın təsisçiləri kimlərdir?**

– Təsisçilər beynəlxalq səviyyədə elm və sənət sahəsində sözünü demiş insanlardır. Şərti adı hələlik "Azərbaycan Akademiyası" olan akademiyanı 5 nəfər təsis edir. Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadə (Kaliforniya), müasir mikro-neyro cərrahiyyənin atası sayılan, beyində əməliyyat aparmaq üçün cihaz düzəldən və bunu gerçəkləşdirən, milliyyətcə türk olan Mahmud Qazi Yaşargil (Amerika), türklərin məşhur tarixçisi Halil İnalcık, bəstəkar Arif Məlikov və mən. Başqa maraq göstərənlər də var. Amma hələlik bu 5 nəfər təsisçilik edir.

Qərara gəlinib ki, təsisçilər siyasətlə məşğul olan adam olmasın. Çünki siyasətlə məşğul olan adamlar bunu siyasətə doğru dartacaqlar. Ona görə çalışdıq ki,həm də bu adamların heç biri nə xaricdə, nə də Azərbaycanda hökumətdə vəzifə tutan adam olsun. Burda təmsil olunanlar yalnız elm və sənət adamlarıdır.

**– Hansı sahələri əhatə etmək niyyətiniz var?**

– Uzun müzakirələrdən sonra riyaziyyat və təbiət elmləri, humanitar və sosial elmlər, mühəndislik və texnologiya həyat haqqında elmlər (biologiya, tibb, psixologiya), ədəbiyyat, incəsənət, mədəniyyət, musiqi sahələri üzrə bölgü aparılıb. Razılığa gəldiyimiz mühüm bir cəhət də odur ki, humanitar sahələrə baxanda, seçkilərdə biz yaradıcı adamlara üstünlük verəcəyik. Məsələn: musiqidən söhbət gedirsə, seçim musiqi haqqında yazanlar arasında yox, musiqiçilərin özləri arasında olacaq. Böyük bəstəkar, vokalçı, pianoçu, yəni sənətin içində olan. Ədəbiyyat sahəsində yazıçıya, şairə üstün-

lük veriləcək. Əsas seçimimiz ilk növbədə sənəti yaradanlardır, sənətşünaslar yox.

Akademiya həm də dünyadakı elmi intellektual cərəyanları, deyək ki, nüvə fizikasındakı, genetikadakı və sair sahələrdəki yenilikləri izləyib xülasələr hazırlayacaq. Elmimizin, sənətimizin, mədəniyyətimizin dünyaya inteqrasiyası üçün insanlara yol göstərəcək.

Dünyada fizika var, Azərbaycan fizikası deyilən bir şey yoxdur. Ona görə də dünya ilə yarışırıq. Səmimi deyim, bizim Milli Elmlər Akademiyasının institutları var. Hərəsində, məsələn, 300 adam çalışır. Onlardan deyək ki, 10-u ciddi elmlə məşğuldur. Amma hamı hökumətdən maaş alır. Qoy 20 adam olsun, ancaq ciddi işlə məşğul olsun, yaxşı da maaş alsın.

**– Akademiyada neçə üzv təmsil olunacaq?**

– Seçiləcək üzvlər daimi və məhdud sayda olacaq. Hələ konkret bir rəqəm müəyyənləşməyib. Bəlli olanda ki, bu nə qədər yer olacaq, ancaq o sayda adam daimi üzv seçiləcək. Yeni üzv yalnız kimsə dünyasını dəyişəndə onun yerinə seçilə bilər. Məsələn: Fransız akademiyasında 40 daimi üzv var. XVII əsrdən bəri bu belədir.

Akademiyanın seçkiləri tam obyektiv olacaq və burda heç bir diktə qəbuledilməzdir.

Seçkidə həm də heç kimin siyasi baxışı nəzərə alınmayacaq. Biz alimi, musiqiçini qiymətləndiririk. Böyük fizikin, kimyaçının, yazıçının siyasi düşüncəsi bizə maraqlı deyil.

**– Qeyd etdiniz ki, yeni akademiyanın həm də qiymətləndirmə funksiyası olacaq. Necə?**

– Bir sıra medalların təsisi haqqında da müzakirələr gedir. Ola bilər kimsə akademiyaya üzv seçilməyib, amma təmsil olunduğu sahədə gözəl bir iş görüb. Bu medallar qiymətləndirmək üçün olacaq. Qərara gəlmişik ki, ilk medallar Azərbaycanın məşhur şəxslərinin adına təsis edilsin. Məsələn, M.F.Axundzadə, C.Məmmədquluzadə, Ü.Hacıbəyov medalı uyğun sahələrdə verilə bilər. İkinci mərhələdə İslam dünyasında olan böyük şəxsiyyətlərin adına, məsələn, İbn Sina, Nəsirəddin Tusi adına medallar təsis edilə bilər. Üçüncü mərhələdə isə dünyada olan tanınmış şəxslərin – Nyutonun, Eynşteynin, Arximedin adına medal ola bilər. Əsas prinsiplər müəyyən olunub və indi texniki məsələlər üzərində iş gedir.

**– Uğurlu nəticə necə müəyyən olunacaq?**

– Bu barədə də müzakirə aparırıq. Ancaq üzvlər namizəd irəli sürə bilər, yoxsa insanlar özü də iştirak edə bilər?! Dünyadakı alternativ üsullar araşdırılır. Bəzi akademiyalarda elədir ki, akademiyanın üzvləri ancaq özləri namizəd irəli sürür. Bəzi akademiyalarda isə insanların öz təşəbbüsü nəzərə alınır.

**– Akademiyanın prezidenti və maliyyə mənbəyi bəllidirmi?**

– Hələ ki prezident müəyyənləşməyib. Əminəm ki, təsisçilərin heç biri bunu istəmir. Çünki onlar kifayət qədər şöhrət sahibidirlər. Sadəcə iş görmək istəyirlər.

Maliyyəyə gəlincə, ilkin işləri öz hesabımıza keçiririk. Qarşıda maliyyə mənbələri olacaq. Amma bizim üçün prinsipial olan bir məqam var ki, maliyyə mənbəyi işimizə təsir etməməlidir. Yəni təzyiqli maliyyəni biz qəbul etmirik. Bu sırf elmə xidmət edən fondlar, beynəlxalq qurumlar və təşkilatlar ola bilər.